# ZƏNGİLAN RAYONUNDA ERMƏNİ VANDALİZMİ

*(Əvvəli ötən sayımızda)*

Biosferin bir hissəsini təşkil edən meşələr canlıların qida zəncirini təşkil edir və burada müxtəlif bitki və heyvan növləri yaşayır. İşğal olunmuş ərazilərdə meşələrin qırılması həmin ərazidə ekoloji tarazlığın pozulmasına və Cənubi Qafqaz regionunda ekoloji qəzaların yaranmasına səbəb ola bilər. Meşələrin qırılması yalnız hərbi məqsədlər üçün deyil, tikinti materialı, mebel sənayesi və digər məqsədlərdə istifadə üçün hərbiçilərin köməyi ilə qırılaraq orada olan hərbi texnikanın vasitəsi ilə daşınır. Kəsilmiş ağacların izlərini itirmək məqsədilə torpaq üstü gövdələr partladılır və yaxud yandırılır. Meşələrdə strateji əhəmiyyətə malik qoz ağacları ilə yanaşı palıd, fıstıq, göyrüş və s. kimi qiymətli ağaclar kəsilərək Ermənistana daşınır və oradan isə xarici ölkələrə ixrac edilir. Kiçik Qafqazın aşağı hissəsində Mehri, Zəngilan və Qubadlı rayonları ərazisində məskunlaşmış dağ keçisi, cüyür, qaban, ayı və digər vəhşi heyvanlar kütləvi şəkildə ovlanır.

Bütün yuxarıda göstərilən faktlar 16 may 2006-cı il tarixdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə bir sıra qeyri-hökumət təşkilatlarının “Azərbaycanın işğal olunmuş ərazilərində ətraf mühitə və sərvətlərə edilən ekoloji terror” mövzusuna həsr edilmiş dəyirmi masada da səslənmişdir. Dəyirmi masada çıxış edən Zəngilan ekologiya idarəsinin müdiri M.Qurbanovun sözlərinə görə, işğalçı rejimin dəstəyi ilə Dağlıq Qarabağ separatçıları həmin ərazilərdə çoxillik ağacları, nadir bitkiləri dünya florasından silmək üzrədirlər: “Dəniz səviyyəsindən 1800 metr hündürlükdə olan Şuşanın ekoloji resursları bütövlükdə dağıdılmışdır. Dördyolda, Laçın küçəsində, turist bazasında ağaclar və meşə massivi bütövlükdə məhv edilmişdir. Azıx mağarası silah anbarına çevrilmişdir. Hazırda həmin ərazilər narkotik istehsalı üçün separatçı rejim tərəfindən gizli şəkildə saxlanılmaqdadır. Xocavənddən Füzuliyə qədər olan yollarda heç bir yaşıllığa rast gəlmək mümkün deyil. Hazırda orada kəsilmiş ağacların kötükləri partladılaraq məhv edilməkdədir. Ağdamda kütləvi ekoloji dağıntılar mövcuddur. Yaşıllıqlar tamamilə məhv edilmişdir. Erməni işğalçıları iri çinar ağaclarım kökündən partladaraq doğrayıb satmaqla məşğuldurlar. Füzulidə 10 km avtomobil yolu çəkilib. Meşə massivinin içi ilə gedən bu yolu çəkmək üçün kütləvi şəkildə ağaclar məhv edilib. Cəbrayıl rayonunda isə, ümumiyyətlə, flora və faunaya rast gəlmək mümkün deyil. Hətta həmin rayonun kəhrizləri belə qurudulmuşdur. Zəngilan rayonu ərazisində Araz çayının suyu zəhərli-kimyəvi maddələrlə çirkləndirilməkdədir. Zəngilanın qızıl yataqları talanaraq, xarici dövlətlərə satılır. Rayon ərazisində qalın meşəliklər, palıd ağacları partladılır və izi itirmək üçün həmin köklərin üzərindən traktorlar şum çəkirlər. Hansı ki bu ağacların yaşları tabaşir dövrünə gedib çıxır [16].

Zəngilan bölgəsi Azərbaycanın ən gözəl bölgələrindən olub, heyranedici təbiətə və zəngin təbii ehtiyatlara malikdir. Zəngilan Kiçik Qafqaz dağlarının ətəyində, Araz çayının sahilində yerləşir və ərazidəki Həkəri, Oxçuçay və Bəstiçay çayları da buranı cəlbedici əraziyə çevirmişdi. Təəccüblü deyil ki, 1974-cü ildə Azərbaycan Nazirlər Komitəsinin qərarı ilə yaradılmış Bəstiçay qoruğu bu ərazidə yerləşirdi. Bəstiçayın hər iki sahilini əhatə edən Çinar meşəsi 117 hektar olub, 15 m uzunluqda və 100-200 m enlikdə idi. Qoruqda 4500-dən çox çinar vardı [15].

Böyük təbii gözəlliklərə malik olan Zəngilan rayonu həm də Azərbaycanın ən qədim ərazilərindən biri hesab edilir. Süsən və Əzgil dağlarındakı mağaralar bu ərazidə qədim insanların mövcud olduğunun şahididir. XX əsrin 60-cı illərində Zəngilanda aparılan arxeoloji qazıntılar zamanı Yuxarı Yeməzli və Yeməzli kənd-ləri arasındakı “Şəhid Məhəmməd” adlı yerdən e.ə. I minilliyin ortalarında Azər-baycan ərazisində geniş yayılmış küp qəbirlər aşkar edilmişdir. Qeyd edilməlidir ki, belə dəfn forması Azərbaycanda VII-VIII əsrlərədək davam etmişdir. Qəbir-lərdən e.ə. IV-II əsrlərə aid dəyirman daşları, kiçik muncuqlar, qolbaqlar, saxsı qablar, silahlar, nizə ucluqları, metal və tunc oxlar, pullar və digər əşyalar tapılmışdır. Bu ərazidən tapılmış pullar Böyük İsgəndərin dövründən əvvələ aid olub, Qafqaz Albaniyasında, həmçinin Zəngilan ərazisində xarici iqtisadi əlaqələrin mövcudluğuna sübutdur [2].

1974 və 1979-cu illərdə Zəngilan ərazisində aparılan arxeoloji qazıntıların nəticəsi kimi “Şəhri-Şərifan” adlı qədim yaşayış ərazisi aşkar edilmişdir. Orta əsr mənbələrinə görə, Şərifan Bərdə-Divin və Ərdəbil-Naxçıvan kimi mühüm ticarət yollarının üzərində yerləşirdi. Bu ərazinin çox hissəsini Həkəri çayının daşqınları dağıtmışdır. Şəhərin dağıntıları 9 ha ərazini əhatə edir. Şəhər əlverişli ərazidə olub, qərbdən dağ silsiləsi və şərqdən Həkəri çayının sahilləri ilə əhatə olunmuşdur. Bu ərazidə iki qəbiristanlıq aşkar edilmişdir. Onlardan biri dağların ətəyindən 1 km şimalda yerləşib, şəhərin zəngin adamlarına məxsus olan sərdabəli qəbirlərdən ibarətdir. Sərdabələr ağ daşlardan tikilib, çox hallarda həndəsi və bitki şəkilləri ilə bəzədilmişdi. İkinci qəbiristanlıq isə şəhərin şimal-qərbində yerləşib, taxta ilə örtülmüş qəbirlərdən ibarətdir. Hər iki qəbiristanlıqda dəfn mərasimi İslam ənənələrinə uyğun aparılmışdır. Bundan başqa, bu ərazidən çoxlu sayda maddimədə-niyyət nümunələri tapılmışdır. Onların arasında sərdabələrindən biri öz orijinal görünüşü ilə xüsusi diqqət çəkir. O kub formalı idi. Abidənin girişi şərqdən olub, yuxarı hissəsində dəlik olan tağa malik olmuşdur. Daxildə tağ xətləri vardır. Tağlara düzgün profil verilmişdir. Cənubi və şərqi tağlar ahənglə müxtəlif həndəsi və bitki naxışları ilə bəzədilmişdir. Tağların yuxarı hissəsində havanı dəyişmək üçün 3 dəlik var idi. Hər divarda 45 dərəcə enində ötürücü olub, daxili məkanı xaricdən olan hava ilə əlaqələndirirdi. Sərdabənin mərkəzindəki cənubi cərgədə olan mehrab daş naxışlarla bəzədilmişdi və ahəngdən yarım günbəzlə tamamlanmışdı. Mehrabın üst hissəsində yazı var idi. Abidənin divarları daş pərvazlı sadə profilli, adi rəf formalı vizual köməkçi günbəzlə tamamlanırdı [3].

Qədim yaşayış əraziləri, qəbiristanlıqlar və küp qəbirlər kimi arxeoloji abidələrdən başqa Zəngilanda müxtəlif memarlıq abidələri də var idi. Bunların içərisində Əmirxanlı kəndində XII əsrə aid Qız qalası, Məmmədbəyli kəndində XIV əsrə aid səkkiz bucaqlı qəbir, Yenikənd kəndində XIV əsrə aid sərdabə, Aşağı Yeməzli kəndində Alban kilsəsi və müxtəlif, məscid və qalaları göstərmək olar. Dairəvi qala Hacılı kəndinin qərbində yerləşirdi. Qəbiristanlığa yaxın olması bu abidənin xatirə, yaxud ayin xüsusiyyətli olması haqda məlumat verir. Abidə silindrik formaya malik idi: hündürlüyü 4,3 m, diametri 5,70 m olub, sal daşları və əhəngdaşıdan tikilmişdi. Zəngilanın ən mühüm abidələrindən olan Məmmədbəyli türbəsi Araz və Həkəri çaylarının mənbəyində yerləşən qəbirlər qrupuna daxildir. Onun səkkiz künclü cismi piramida şəkilli dörd tərəfli dam ilə tamamlanan iki pilləli altlıq üzərində yerləşir. Məzar əhənglə gübrələnmiş daşdan tikilmişdi. Düzbucaqlı giriş 1,88 m hündürlükdə olub, ornamentlərlə bəzədilmişdi. Abidənin üzlük daşları bayırdan sadə həndəsi formalı dəliyə malik idi. Dördkünc dam örtüyü səliqəli doğranmış daşlar və sadə pərvazlardan ibarətdir. Abidənin yeraltı ərazisi 1975-ci ildə ilk dəfə təmizlənərkən qəbirin sərdabəsi tapılmışdı. Qapı girəcəyində ərəb dilindəki yazıda abidənin 1305-ci ildə Məhəmməd əl-Hacın oğlu Yəhya üçün tikildiyi göstərilmişdir [4].

Zəngilan şəhərindən 8 km aralı, Əsgülüm dağının 30 m hündürlüyündə, 150 m. enində “Qala” hörgü divarları III-V əsr bundan əvvəl tikilmiş müdafiə əhəmiy-yəti kəsb edən tarixi abidələrdən biri idi. Həmin “Qala”dan 2000 m aralıda olan və içərisində 100-150 nəfərin gizlənə bildiyi “Kuful” deyilən daş yarığı uzaq tarixi keçmişimizdən yadigar idi. Bu “Kuful”un hündürlüyü 15 m-dən çoxdur. İşğaldan qabaq həmin tarixi sahələr gənclərin ekskursiya yerinə çevrilmişdi.

Rayonun Məmmədbəyli və Babaylı kəndlərində olan türbələr, Şərifan kəndində olan qədim abidələr, naməlum tarixə malik batmış yeraltı qədim “Şəhri-Şərifan” şəhəri tariximizin açılmamış sirr yaddaşı idi. Təəssüf ki, uzaq tariximizdən xəbər verən bu abidələr hazırda erməni işğalının qurbanına çevrilib.

Zəngilan rayonunun Alıbəyli kəndinin video çəkilişi zamanı kənd qəbiristanlığında yanan ağacların kötükləri görünür, həmin ərazidə qəbirüstü daşların ətrafına əkilmiş həmişəyaşıl çoxillik ağaclardan əsər-əlamət yoxdur. Qəbiristan-lıqda keçən əsrdən qalmış əhəng daşlardan hazırlanan qəbirüstü daşlar istisna olmaqla bütün qiymətli qəbirüstü daşlar və abidələr sökülüb aparılmışdır. Kənd sakinlərinin evlərinin ancaq sökülmüş daşlarının qalıqları görünür. Kolxoz ferması tamamilə dağıdılıb. Kəndin mərkəzindəki mağaza sökülmüşdür. Alıbəyli kəndinin qurtaracağında böyük bir sahədə tək ağac və pir görünür, ətraf bütünlüklə məhv edilmişdir [5].

Hazırda işğal altında olan Zəngilan rayonundan 72550 hektar torpaq sahəsinin 57,8 faizi və ya 41955 hektarı müxtəlif dərəcədə eroziyaya uğramış sahələr kimi tədqiq olunmuşdur. Belə ki, həmin dövrdə torpaq ehtiyatlarının 16415 hektarı və ya 22,6 faizi zəif, 8640 hektarı və ya 11,9 faizi orta və 16900 hektarı və ya 23,3 faizi şiddətli dərəcədə eroziyaya uğradığı müəyyən edilmişdir Bölgədə ümumi torpaq ehtiyatlarının yarısından çoxu eroziyaya məruz qalmış Cəbrayıl (71,9%) və Zəngilan (57,8%) rayonlarının olduğu göstərilir [7].

Aparılan tədqiqatlardan məlum olur ki, Ermənistanın viranedici vandalizmi nəticəsində, Zəngilan rayonunda 72550 hektar torpaq sahəsi dövriyyədən çıxarılmışdır ki, bundan 32840 hektarı kənd təsərrüfatına yararlı torpaqlar, 539 hektarı həyətyanı torpaqlar olmuşdur. Ümumilikdə Azərbaycan Respublikasında istehsal edilən taxılın 14,3%-i, üzümün 31,5%-i, ətin 14,5, südün 17,1, yunun 19,3 və baramanın 17%-i işğal olunmuş rayonların payına düşürdü. İşğal nəticəsində kənd təsərrüfatına 472 milyon ABŞ dolları zərər dəymişdir [7].

Qeyd edək ki, artıq 1993-cü ildən işğal nəticəsində Zəngilan rayonundakı torpaqlardan il ərzində 4,6 min ton taxıl, 16,3 min ton üzüm, 64 ton kartof, 2,5 min ton süd, 20 ton yun, 82 ton barama yığılmır və 18085 baş iri buynuzlu malqara, o cümlədən 6848 baş inək və camış, 34902 keçi və qoyun ələ keçirilmiş heyvandarlıq məhsulları itirilmişdir [8].

Zəngilan rayonunun işğal altında olan ərazilərdə yerləşən abidələrimizin çoxu dağıdılıb, məhv edilmiş, qalanlarının isə ermənilər tərəfindən süni yollarla “erməni xalqına mənsub olması” təbliğ edilir və beynəlxalq ictimaiyyətdə yanlış rəy yaradılır.

İşğal zamanı Zəngilan rayonundan 53 klub, 70 kitabxana, eksponatları ilə birlikdə 3 muzey və onların filialları, 4 uşaq musiqi məktəbi və onların filialları konsert müəssisəsi, mədəniyyət və istirahət parkı, 9 mədəniyyət evi işğal olunmuş, dağıdılmışdır. İşğal altında olan kitabxanalarda 400 min nüsxə kitab fondu, 500 ədəd xalça məmulatları qarət olunmuşdur [9].

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyət Siyasəti şöbəsi muzey sektorunun verdiyi məlumata görə, Zəngilan rayonundakı daş monumental muzeyin taleyi indiyədək bəlli deyil.

Zəngin təbiətə, tarixə, coğrafiyaya, yeraltı və yerüstü təbii sərvətlərə malik Zəngilan rayonu bu gün də, işğal altındadır və bu sərvətlər qəddarcasına talan edilir. Ümummilli lider Heydər Əliyev 1996-cı ildə Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı yekun nitqində göstərmişdir: “... Hörmətli Zəngilan rayon ictimaiyyəti mən Sizi bir daha tamamilə əmin edirəm ki, işğal olunmuş torpaqlarımız tezliklə işğaldan azad olunacaq, zəngilanlılar öz doğma yerlərinə-yurdlarına qayıdacaq, müstəqil Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa ediləcəkdir” [12, s.215].